**Azərbaycan Respublikası adından**
**Q Ə T N A M Ə**

**İş № 2-1(103)-332/2010**

**29 iyul 2010-cu il** **Bakı şəhəri**

Bakı Apellyasiya Məhkəməsinin inzibati - iqtisadi kollegiyası;
Hakimlər Abbasov Mirzəli Əbdüləli oğlunun sədrliyi,
Seyidova Səriyyə Seyid qızı və Hüseynov Sərvət Qeybalı oğlundan ibarət tərkibdə,
Məhkəmə iclas katibi Hüseynov Zaur Nazim oğlu,
iddiaçı Novruzov Vaqif Məhərrəm oğlu,
cavabdeh "Bakıelektrikşəbəkə" ASC – onun nümayəndəsi Hüseynova Rasimə Tofiq qızının iştirakları ilə,
1 saylı Bakı yerli İqtisad Məhkəməsinin 2-(81)-574/2010 saylı 17 fevral 2010-cu il tarixli qətnaməsindən iş üzrə cavabdeh "Bakıelektrikşəbəkə" ASC tərəfindən verilmiş apellyasiya şikayətinə əsasən mülki işə məhkəmənin binasında açıq məhkəmə iclasında baxaraq,

m ü ə y y ə n e t d i :

İş üzrə iddiaçı Novruzov Vaqif Məhərrəm oğlu cavabdeh "Bakıelektrikşəbəkə" ASC-yə qarşı iddia ərizəsi ilə Səbail rayon məhkəməsinə müraciət edərək cavabdeh tərəfindən iddiaçı barəsində tərtib edilmiş 26 avqust 2009-cu il tarixli UŞ 056285 saylı aktın ləğv edilməsi və tətbiq edilən cərimənin silinməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

Bakı şəhəri Səbail rayon məhkəməsinin 2(009)2758/09 saylı 16 noyabr 2009-cu il tarixli qərardadına əsasən Novruzov Vaqif Məhərrəm oğlunun "Bakıelektrikşəbəkə" ASC-nə qarşı aktın ləğv edilməsi və borcun silinməsi tələbi barədə iddiasına dair mülki iş baxılması üçün 1 saylı Bakı yerli İqtisad Məhkəməsinə göndərilmiş və həmin məhkəmə tərəfindən icraata qəbul edilmişdir.

Daha sonra 1 saylı Bakı yerli İqtisad Məhkəməsinin iş üzrə qəbul etdiyi 2-(81)-574/2010 saylı 17 fevral 2010-cu il tarixli qətnaməsi ilə (sədrlik edən hakim Q.R.Abbasov) iddia qismən təmin edilərək Novruzov Vaqif Məhərrəm oğlundan "Yakamoz" kafesində işlətdiyi əlavə elektrik enerjisinin sərfiyyatına görə 30.09.2009-cu il tarixli icra vərəqəsi üzrə enerji sərfinə hesablanmış 201,27 manatlıq enerji sərfinin dəyərinin alınması istisna olmaqla, əlavə sərfiyyata görə

hesablanmış (2385,29 manat) pulun miqdarına uyğun enerji sərfiyyatı hissəsində etibarsız hesab edilməsi, iddianın qalan hissədə təmin edilməməsi qət edilmişdir.

Qətnamədən narazı qalan cavabdeh “Bakıelektrikşəbəkə” ASC apellyasiya şikayəti verərək 1 saylı Bakı yerli İqtisad Məhkəməsinin hazırki iş üzrə qəbul etdiyi 17 fevral 2010-cu il tarixli qətnaməsinin ləğv edilməsi və iddianın rədd edilməsi barədə yeni qətnamə qəbul edilməsini xahiş etmişdir. Cavabdeh apellyasiya şikayətini onunla əsaslandırmışdır ki, birinci instansiya məhkəməsi qətnamə qəbul edərkən maddi və prosessual hüquq normalarını pozmuş, məhkəmənin qətnamədə göstərilmiş nəticələri işin hallarına uyğun olmamışdır. Belə ki, mübahisələndirilən 26.09.2009-cu il tarixli 056285 saylı aktdan məlum olur ki, 018725 saylı tələbnaməyə əsasən iddiaçıya məxsus “Yakamoz” kafesinin TM-147-də yerləşən mexaniki tipli sayğacı yeni elektron tipli sayğacla əvəz olunmuş və çıxarılan sayğac laborator müayinəyə göndərilmişdir. Sayğac abonentin nümayəndəsi Y.Hüseynovun iştirakı ilə dəyişdirilmiş və bu barədə tərtib olunan aktı imzalamışdır. Sayğacın laborator müayinəsi zamanı onun qırmızı möhürünün siminin dartılma yolu ilə üst qapağının açılması, hesablama mexanizmində 100-lük rəqəmdə müdaxilə izinin olması barədə rəy verilmiş və bu haqda 29.09.2009-cu il tarixli 010957 saylı protokol tərtib olunmuşdur. Həmin protokol əsasında “Bakıelektrikşəbəkə” ASC-nin Akt komissiyasının 30.09.2009-cu il tarixli icra vərəqi ilə iddiaçıya 371 gün müddətinə 43109 kvts əlavə sərfiyyat və 2586,54 manat əlavə ödəniş hesablanmışdır. Akta əsasən yenidən hesablaşma iştirakçı tərəfindən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02 fevral 2005-ci il tarixli 18 saylı qərarı ilə təsdiq olunmuş “Elektrik Enerjisindən İstifadə Qaydaları”nın 8.17-ci bəndinin tələbləri pozulduğuna görə aparılmışdır. EEİQ-nin 8.17-ci bəndi elektrik enerjisindən istifadə qaydalarının pozulmasının 3 halını təsbit edir: hesablaşma uçot cihazlarının zədələnməsi (plombun qoparılması, baxış şüşəsinin sındırılması və s.), uçot cihazlarının qoşulma sxemlərinin pozulması, uçot cihazlarından kənar özbaşına yük qoşulması. Laborator müayinə protokoluna əsasən müəyyən olunan pozuntu – sayğacın qırmızı möhürünün siminin dartılma yolu ilə üst qapağının açılması, hesablama mexanizmində 100-lük rəqəmdə müdaxilə izinin olması EEİQ-nin 8.17-ci bəndində nəzərdə tutulan pozuntu hallarından hesablaşma uçot cihazlarının zədələnməsi halını ifadə etmişdir. İcra vərəqindən görünür ki, akta əsasən aşkar edilən pozuntuya görə əlavə sərfiyyat və ödəniş 371 gün müddətinə hesablanmaqla, Mülki Məcəllədə nəzərdə tutulan 3 illik iddia müddətindən kənara çıxmamışdır. İşləmə saatı kimi 12 saat, qoyulmuş güc kimi isə aktda göstərilən 20,7 kvt əsas götürülmüşdür. Bundan əlavə iş materiallarından görünür ki, abonentə sayğaca 29.09.2009-cu il tarixdə laboratoriyada rəy verilməsində iştirak etmək barədə xəbərdarlıq edilmiş, lakin abonent özü rəydə iştirak etməyə gəlməmiş və laborator müayinənin nəticələrinə dair tərtib olunmuş “Sayğacların və cərəyan transformatorlarının yoxlanma” protokolunda bu haqda müvafiq qeyd aparılmışdır. Göründüyü kimi istər aktın, istər laboratoriya müayinə protokolunun tərtibi, istərsə də, icra vərəqinə əsasən yenidən hesablaşmanın aparılması ilə bağlı cavabdeh “Bakıelektrikşəbəkə” ASC-nin hərəkətləri EEİQ-nin tələblərinə uyğun olmuşdur. Beləliklə, işin yuxarıda qeyd olunan halları ilə müəyyən olunur ki, mübahisələndirilən yoxlama aktı ilə iddiaçıya verilən elektrik enerjisinin hesabatını aparan sayğaca müdaxilə olunması sayğacın

laborator müayinə protokolu ilə öz təsdiqini tapmışdır. Ona görə də cavabdeh tərəfindən iddiaçıya haqlı olaraq EEİQ-nin 8.17-ci bəndi tətbiq olunaraq faktiki işlətdiyi, lakin qeydə alınmamış elektrik enerjisinin dəyəri kimi əlavə ödəniş hesablanmış, yenidən hesablaşma EEİQ-nin 8.17-ci bəndinin tələblərinə tam uyğun şəkildə aparılmışdır. Lakin birinci instansiya məhkəməsi qətnamə qəbul edərkən mübahisəyə düzgün olmayaraq, EEİQ-nin 8.16-cı bəndini tətbiq etmişdir.

Məhkəmə iclasında cavabdehin nümayəndəsi R.T.Hüseynova apellyasiya şikayətinin dəlillərinə uyğun izahat verərək göstərdi ki, iddiaçının fəaliyyət göstərdiyi “Yakamoz” kafesinə məxsus sayğac həmin kafenin 200 metr yaxınlığında yerləşən və “Bakıelektrikşəbəkə” ASC-nin balansında olan TM-147 saylı transformatorda yerləşir. 26.09.2009-cu il tarixdə iddiaçıya məxsus “Yakamoz” kafesinin TM-147-də yerləşən mexaniki tipli sayğacı yeni elektron tipli sayğacla əvəz olunmuş və çıxarılan sayğac laborator müayinəyə göndərilmişdir. Sayğac abonentin nümayəndəsi Y.Hüseynovun iştirakı ilə dəyişdirilmiş və bu barədə tərtib olunan aktı iddiaçının nümayəndəsi imzalamışdır. Sayğacın laborator müayinəsi zamanı onun qırmızı möhürünün siminin dartılma yolu ilə üst qapağının açılması, hesablama mexanizmində 100-lük rəqəmdə müdaxilə izinin olması barədə rəy verilmişdir. Buna görə də “Bakıelektrikşəbəkə” ASC-nin Akt komissiyasının 30.09.2009-cu il tarixli icra vərəqi ilə iddiaçıya 371 gün müddətinə 43109 kvts əlavə sərfiyyat hesablanmışdır. Cavabdeh tərəfindən laboratoriya müayinə protokolunun tərtibi zamanı və icra vərəqinə əsasən yenidən hesablaşmanın aparılmasında EEİQ-nin tələblərinə əməl edilmişdir. Ona görə də cavabdeh tərəfindən iddiaçıya haqlı olaraq EEİQ-nin 8.17-ci bəndi tətbiq olunaraq faktiki işlətdiyi, lakin qeydə alınmamış elektrik enerjisinin dəyəri kimi əlavə ödəniş hesablanmış, yenidən hesablaşma EEİQ-nin 8.17-ci bəndinin tələblərinə tam uyğun şəkildə aparılmışdır. Qeyd olunanlara əsasən 1 saylı Bakı yerli İqtisad Məhkəməsinin hazırki iş üzrə qəbul etdiyi 17 fevral 2010-cu il tarixli qətnaməsinin ləğv edilməsi və iddia tələbinin təmin olunmaması barədə yeni qətnamə qəbul edilməsini xahiş etdi.

Məhkəmə iclasında iddiaçı V.M.Novruzov izahatında apellyasiya şikayətinin dəlillərini əsassız hesab edərək göstərdi ki, Bakı şəhəri Səbail rayonu, Dənizkənarı Bulvarda yerləşən “Yakamoz” kafesinə məxsus köhnə sayğac 26 sentyabr 2009-cu il tarixdə cavabdehin əməkdaşları tərəfindən yenisi ilə əvəz olunmuş və bu barədə müvafiq akt tərtib edilmişdir. Lakin həmin akt tərtib edilərkən və sayğac yenisi ilə əvəz edilərkən onlara heç bir məlumat verilməmişdir. Sonradan məlum olmuşdur ki, uçot şöbəsinin 29.09.2009-cu il tarixli protokolu ilə guya köhnə sayğacın daxili hesablama mexanizmində 100-lük rəqəmdə müdaxilə izi aşkar edilmiş və bunun əsasında onlara cərimə tətbiq edilərək debitor borclarının 2702,18 manat olması barədə məktub göndərilmişdir. Halbuki, “Yakamoz” kafesinin sayğacı kafedən 200 metr aralıda qapalı şəraitdə yerləşdirilib, həmin yerdə bir neçə abonentin sayğacı var və qapalı yerin açarları daima cavabdehin əməkdaşlarında olur. Belə olan onlar tərəfindən sayğaca müdaxilənin olması qeyri-mümkündür. Qeyd olunanlara əsasən birinci instansiya məhkəməsinin hazırki iş üzrə qəbul etdiyi 17 fevral 2010-cu il tarixli qətnaməsinin dəyişdirilmədən saxlanılması və apellyasiya şikayətinin təmin olunmaması barədə qətnamə qəbul edilməsini xahiş etdi.

Məhkəmə iclasında şahid qismində dindirilmiş Səbail rayon Enerji Təchizatı və Satış İdarəsində mühəndis vəzifəsində işləyən Qasımov Rüzgar Xankişi oğlu ifadəsində göstərdi ki, “Yakamoz” kafesinin yaxınlığında olan TM-147 saylı transformatorda həmin kafenin sayğacı ilə yanaşı digər abonentlərin də sayğacı yerləşir və hər elektrik sayğacı bir obyektə xidmət edir. Bundan əlavə, o göstərdi ki, TM-147 saylı transformatorun açarları daima cavabdehin əməkdaşlarında olur və həmin yerə kənar şəxslərin, o cümlədən abonentlərin hər hansı müdaxilə etməsi qeyri-mümkündür.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəllənin 372.7-ci maddəsinə əsasən apellyasiya instansiya məhkəməsi şikayətin dəlillərindən asılı olmayaraq, məhkəmənin maddi və prosessual hüquq normalarına riayət etməsini yoxlayır.

Məhkəmə kollegiyası məruzəçi hakimin işin halları, birinci instansiya məhkəməsinin qətnaməsinin və apellyasiya şikayətinin məzmunu haqqında məruzəsini, tərəflərin nümayəndələrinin izahatlarını və şahid ifadəsini dinləyib, iş materiallarını tam və hərtərəfli araşdıraraq hesab edir ki, 1 saylı Bakı yerli İqtisad Məhkəməsinin hazırkı iş üzrə qəbul etdiyi 17 fevral 2010-cu il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılmalı, apellyasiya şikayəti təmin olunmamalıdır.

Belə ki, iş materiallarından görünür ki, Novruzov Vaqif Məhərrəm oğlu 12 may 2005-ci il tarixdə vergi ödəyicisi kimi Bakı şəhəri Vergilər Departamentinin 2 saylı filialında uçota alınmışdır. Eyni zamanda Novruzov Vaqif Məhərrəm oğlu “Xəzri” Qapalı Tipli Səhmdar Cəmiyyətinin təsisçilərindən biri olmaqla, həmin cəmiyyətə məxsus Bakı şəhəri, Səbail rayonu, Neftçilər prospekti 135 ünvanda (Dənizkənarı parkda) yerləşən “Yakamoz” kafesində sahibkarlıq fəaliyyəti ilə məşğul olur.

İş materiallarında olan sənədlərdən görünür ki, Bakı şəhəri, Səbail rayonu, Dənizkənarı Bulvarda yerləşən “Yakamoz” kafesinə məxsus olan və həmin kafenin yaxınlığındakı TM-147 transformatorunda yerləşən seriya № 08002365 olan mexaniki sayğac 26 sentyabr 2009-cu il tarixdə “Bakıelektrikşəbəkə” ASC-nin uçot şöbəsinin əməkdaşları tərəfindən yeni elektron tipli seriya № A-370913631 olan sayğacla əvəz edilmiş və bu barədə “Sayğac sxemlərinin yoxlanışı, quraşdırılması və dəyişdirilməsi üzrə” 056285 №-li akt tərtib edilmişdir.

İş materiallarında olan 29 sentyabr 2009-cu il tarixli 010957 №-li “Sayğacların və cərəyan transformatorlarının yoxlanma Protokolu”nun surətindən görünür ki, “Yakamoz” kafesinə məxsus 08002365 nömrəli sayğac laboratoriya yoxlamasından keçirilmiş və yoxlama zamanı sayğacın qırmızı möhürünün siminin dartılma yolu ilə üst qapağının açılması və sayğacın hesablama mexanizmində 100-lük rəqəmində müdaxilə izinin olması aşkar olunmuşdur.

İş materiallarına əlavə edilmiş “Bakıelektrikşəbəkə” ASC-nin Akt Komissiyasının 30 sentyabr 2009-cu il tarixli İcra vərəqindən görünür ki, uçot şöbəsinin 29.09.2009-cu il tarixli 010957 saylı protokolu əsas götürülərək iddiaçıya $W_{itr}$ = (20,7 kvt x (0,7) x 12 saat x 371 gün) – (81400 kvts – 60000 kvts) = 64509 kvts – 21400 kvts = 43109 kvts, yəni 2586,54 manat dəyərində sərfiyyat hesablanmışdır.

Məhkəmə kollegiyası hesab edir ki, “Yakamoz” kafesinə məxsus köhnə sayğac laboratoriya yoxlamasından keçirilərkən və daha sonra itirilmiş elektrik enerjisi hesablanarkən cavabdeh tərəfindən Azərbaycan Respublikası Nazirlər

Kabinetinin 02.02.2005-ci il tarixli 18 saylı qərarı ilə təsdiq edilmiş “Elektrik Enerjisindən istifadə Qaydaları”nın tələbləri pozulmuşdur.

Belə ki, həmin Qaydaların 7.4-cü bəndinə əsasən hesablaşma elektrik sayğacının zədələnməsinin laboratoriya şəraitində araşdırılması tələb olunduqda, dövlət elektroenergetika müəssisəsinin, enerjitəchizatı müəssisəsinin və “Dövlət Enerjinəzarət” İdarəsinin iştirakı ilə araşdırma aparılır və aktla sənədləşdirilir.

İş materiallarında olan həm “Sayğac sxemlərinin yoxlanışı, quraşdırılması və dəyişdirilməsi üzrə” 056285 №-li aktda, həm də 29 sentyabr 2009-cu il tarixli 010957 №-li “Sayğacların və cərəyan transformatorlarının yoxlanma Protokolu”nda iddiaçının nümayəndəsi kimi “Yalçın Hüseynov” adlı şəxs göstərilsə də, “Xəzri” QSC tərəfindən məhkəməyə ünvanlanmış məktubdan görünür ki, ictimai iaşə obyekti olan “Yakamoz” restoranı “Xəzri Qapalı Səhmdar Cəmiyyəti”nə məxsus olmaqla, həmin restoranda işləyən kollektivdə Hüseynov Yalçın adlı şəxs heç vaxt işləməmişdir.

Belə olan halda, abonentin nümayəndəsinin iştirakı ilə sayğacın dəyişdirilməsi iş materialları ilə sübut olunmur. Bununla yanaşı, sayğacın laboratoriya şəraitində yoxlanılması zamanı da abonentin nümayəndəsinin iştirakı təmin olunmamışdır ki, bu da EEİQ-nın tələblərinə zidd olmuşdur.

Digər tərəfdən iş materiallarında olan sənədlərdən, cavabdehin nümayəndəsinin izahatından və eyni zamanda məhkəmədə şahid qismində dindirilmiş R.X.Qasımovun ifadəsindən görünür ki, “Yakamoz” kafesinin yaxınlığında yerləşən və Bakıelektrikşəbəkə” ASC-nin balansında olan TM-147 saylı transformatorda həmin kafenin sayğacı ilə yanaşı digər abonentlərin də sayğacı yerləşir və TM-147 saylı transformatorun açarları daima cavabdehin əməkdaşlarında olduğundan həmin yerə kənar şəxslərin, o cümlədən abonentlərin hər hansı müdaxilə etməsi qeyri-mümkündür.

Eyni zamanda iş materiallarında olan Abunə haqqında arayışdan görünür ki, iddiaçının fəaliyyət göstərdiyi “Yakamoz” kafesinə məxsus sayğac yenisi ilə əvəz olunduqdan sonra elektrik enerjisindəki sərfiyyat daha da azalmışdır.

Belə olan halda məhkəmə kollegiyası hesab edir ki, laboratoriya müayinəsi zamanı sayğacda aşkar olunan qüsurla əlaqədar iddiaçının təqsirinin olması iş materialları ilə sübut olunmur.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 77.2-ci maddəsinə əsasən dövlət orqanlarının, icra və s. orqanların aktlarının etibarsız hesab edilməsi barədə mübahisələrə baxıldıqda həmin aktların qəbul edilməsi üşün əsas olmuş halları sübut etmək vəzifəsi bu aktı qəbul etmiş orqanın üzərinə düşür.

Bununla yanaşı EEİQ-nın 8.16-cı bəndinə əsasən istehlakçının, o cümlədən məişət abonentinin təqsiri olmadan uçot müvəqqəti pozulduqda, elektrik enerjisi sərfinin hesabatı enerjitəchizatı müəssisəsinin və istehlakçının razılığına əsasən uçot pozulana qədər və ya uçot bərpa edildikdən sonrakı dövrün orta gündəlik sərfinə uyğun aparılır. Elektrik enerjisinin orta gündəlik sərfinə görə hesablaşma dövrü bir aydan artıq olmamalıdır, bu müddət ərzində hesablaşma elektrik sayğaclarının normal işi enerjitəchizatı müəssisəsi tərəfindən bərpa olunmalıdır.

Göründüyü kimi istehlakçının təqsiri olmadan uçot müvəqqəti pozulduqda elektrik enerjisinin orta günlük sərfinə görə hesablaşma dövrü ən çox bir ay müddətinə ola bilər. Bu səbəbdən məhkəmə hesab edir ki, iddiaçıya hesablanmış

sərfiyyat 20,7 x (0,7) x 12 saat x 30 gün = 5216,4 kvts, yəni 312,98 manat dəyərində ola bilər. Aktın tərtib edildiyi tarixdən əvvəlki ay üçün, yəni 11.09.2009-cu il tarixdə iddiaçı 111,71 manat elektrik sərfiyyatına görə pul ödədiyindən həmin məbləğ iddiaçıya hesablanmış sərfiyyatdan çıxılmaqla (312,98 manat – 111,71 manat = 201,27 manat), yerdə qalan məbləğ iddiaçı tərəfindən cavabdehə ödənilməlidir.

Beləliklə, işə apellyasiya qaydasında baxan məhkəmə kollegiyası qeyd edilən hallara istinad etməklə belə nəticəyə gəlir ki, birinci instansiya məhkəməsi maddi və prosessual hüquq normaları düzgün tətbiq etməklə, mübahisəni mahiyyəti üzrə düzgün həll edərək qanuni və əsaslı qətnamə qəbul edilmişdir.

Lakin eyni zamanda qeyd etmək lazımdır ki, birinci instansiya məhkəməsi qətnamə qəbul edərkən mahiyyəti üzrə düzgün nəticəyə gəlsə də, məhkəmə kollegiyası hesab edir ki, hazırkı iş üzrə mübahisənin predmeti tərəflər arasında bağlanmış olan hər hansı əqdlə bağlı olmadığından məhkəmənin, qəbul etdiyi qətnamənin təsviri-əsaslandırıcı hissəsində Mülki Məcəllənin “Əqdlər” adlanan bölməsinin müddəalarına istinad etməsi əsassız olmuşdur.

Azərbaycan Respublikası MPM-nin 14.2-ci maddəsinə əsasən məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

Həmin Məcəllənin 77.1-ci maddəsinə müvafiq olaraq hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

Qeyd olunan Məcəllənin 217.4-cü maddəsinə əsasən məhkəmə öz qətnaməsini yalnız məhkəmə iclasında tədqiq olunmuş sübutlarla əsaslandırır.

Beləliklə, məhkəmə kollegiyası hesab edir ki, cavabdehin apellyasiya şikayətində göstərdiyi dəlillər öz təsdiqini tapmadığından əsassız hesab olunmalıdırlar.

Yuxarıda qeyd olunanları nəzərə alaraq məhkəmə kollegiyası hesab edir ki, 1 saylı Bakı yerli İqtisad Məhkəməsinin hazırki iş üzrə qəbul etdiyi 2-(81)-574/2010 saylı 17 fevral 2010-cu il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılmalı, apellyasiya şikayəti təmin olunmamalıdır.

Şərh olunanlara əsasən Azərbaycan Respublikası MPM-nin 382, 384.0.1., 392 və 405-ci maddələrini rəhbər tutaraq, məhkəmə

q ə t e t d i:

1 saylı Bakı yerli İqtisad Məhkəməsinin hazırkı iş üzrə qəbul etdiyi 2-(81)-574/2010 saylı 17 fevral 2010-cu il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılsın.

Cavabdeh “Bakıelektrikşəbəkə” ASC-nin apellyasiya şikayəti təmin olunmasın.

Qətnamədən işdə iştirak edən şəxslərə rəsmi qaydada verildiyi gündən 2 ay müddətində Bakı Apellyasiya Məhkəməsi vasitəsilə Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati – iqtisadi kollegiyasına kassasiya şikayəti verilə bilər.